# 15 iyun Xalqımızın Zəfər günüdür

İyunun 13-də Elm və Təhsil Mərkəzi “Təfəkkür” universitetində 15 iyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Xalqımızın zəfər günü” adlı tədbir keçirildi.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbiri açan universitetin rektoru, professor Rahim Hüseynov 15 iyun gününü Azərbaycanın tarixinin ən şərəfli səhifələrindən biri kimi dəyərləndirdi, bu günün tarixi əhəmiyyətindən danışdı və qeyd etdi ki 1993-cu il iyunun 15 də Xalqın təkidli tələbi ilə Heydər Əliyev ikinci dəfə Azərbaycana rəhbər vəzifəyə seçildi. Məhz onun yenidən hakimiyyətə qayıdışı sayəsində Azərbaycan xaos və anarxiyadan, vətəndaş müharibəsindən xilas oldu, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq cəhdinə son qoyuldu, yenicə müstəqillik əldə etmiş dövlətimiz məhv olmaq təhlükəsindən qurtardı. Heydər Əliyevin sayəsində Azərbaycan dünya birliyinə qovuşdu, dünya dövlətləri tərəfindən tanındı, beynəlxalq aləmdə özünə layiq yer tutdu.

25 il əvvəl ölkədə baş verən hadisələrin canlı şahidi və iştirakçısı olduğunu deyən professor Rahim Hüseynov o, çətin günlərdə Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi və siyasi uzaqgörənliklə həyata keçirdiyi tədbirlərdən maraqla danışdı. Ölkəmizin bugünkü inkişafının əsasının məhz həmin illərdə, Heydər Əliyev tərəfindən qoyulduğunu deyən rektor Ulu öndərin ölkəyə rəhbərlik etdiyi 10 illik hakimiyyəti müddətini **Azərbaycan tarixinin sosial iqtisadi yüksəliş dövrü** adlandırdı.

Professor Rahim Hüseynov Ulu öndər Heydər Əliyevin siyasi-iqtisadi kursunu keyfiyyətcə yeni müstəvidə davam etdirən Prezident İlham Əliyevin xalqımızın milli maraqlarını beynəlxalq aləmdə layiqincə təmin etdiyini, müstəqilliyimizi möhkəmləndirmək üçün uğurlu addımlar atdığını, dövlətimizin qüdrətini daha da artırmaq üçün Heydər Əliyev ideyalarını yaşadıb, inkişaf etdirdiyini, ölkəmizi aydın və işıqlı sabaha apardığını vurğuladı.

Tədbirdə çıxış edənlər Azərbaycan xalqını müstəqillik və azadlıq uğrundakı mübarizəsindən danışdılar, müstəqilliyi qazanmaqla yanaşı onu qoruyub saxlamağında vacib olduğunu bildirdilər. Məhz Ulu öndərin hakimiyyətə qayıdışından sonra onun müdrik siyasəti sahəsində müstəqilliyimizin qorunub saxlandığını dedilər.